# SARA CİO

# *Böyürtkənli qış*

**r o m a n**

Tərcüməçi:
Aslan Quliyev

QANUN NƏŞRİYYATI

# SARAH JIO

## *Blackberry Winter*

Roman elə ilk sətirlərdən oxucunu özünə cəlb edir. 1933-cü ilin may ayında Sietldə oğlunu tək böyüdən ana yatmamışdan əvvəl onu öpür və gecə növbəsinə işə gedir. Səhər isə şəhərə qar yağır, Vera işdən çıxıb evə gəlir və oğlunun yoxa çıxdığını görür. Aradan az qala 80 il keçəndən sonra yenidən may ayında Sietlə qar yağır və redaksiyadan qar tufanı haqda yazmaq tapşırığı alan Kler Oldricin apardığı təhqiqatlar tükürpərdən, dəhşətli hadisələrə işıq salır…

**Sarah Jio** **BLACKBERRY WINTER**
**Sara Cio** **BÖYÜRTKƏNLİ QIŞ**

Janr: roman
Yaş qrupu: 16+
Ölçü: 130x200 mm
Cild: yumşaq
Səhifə sayı: 328

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: Aslan Quliyev
Redaktor: Flora Əliyeva
Qapaq dizaynı: Rafael Qasımlı
Mətn dizaynı: Rahilə Şamilqızı

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36-300-5

© Qanun Nəşriyyatı, 2017-2020; 2026
Copyright © Sarah Jio, 2012

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları
Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri
"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında"
Azərbaycan Respublikasının Qanununa ziddir.

*Sara Cio*

*Oğlanlarım Karsona, Rasselə və Kolbiyə,*
*onların yumşaq oyuncaqlarına: köhnəlmiş*
*ayılara, yırtılmış üç zürafəyə və*
*zolaqlı balaca pələngə ithaf edirəm.*
*Mən sizin ananızam və bu,*
*həyatımın ən böyük xoşbəxtliyidir.*

*Həm də bütün analara,*
*xüsusilə də öz uşaqlarından*
*həmişəlik ayrılan analara ithaf olunur.*

# MÜNDƏRİCAT


I fəsil. VERA REY ........................................................... 9

II fəsil. KLER OLDRİC.................................................. 17

III fəsil.VERA................................................................ 23

IV fəsil. KLER .............................................................. 34

V fəsil. VERA ................................................................ 53

VI fəsi. KLER ................................................................ 61

VII fəsil. VERA. ÇARLZ ................................................ 86

VIII fəsil. KLER ............................................................ 96

IX fəsil. VERA............................................................... 102

X fəsil. KLER ................................................................ 114

XI fəsil. VERA............................................................... 130

XII fəsil. KLER.............................................................. 151

XIII fəsil. VERA............................................................ 177

XIV fəsil. KLER ............................................................ 186

XV fəsil. VERA ............................................................. 207

XVI fəsil. KLER ............................................................ 233

XVII fəsil. VERA........................................................... 250

XVIII fəsil. KLER ......................................................... 261

XIX fəsil. ...................................................................... 277

XX fəsil......................................................................... 300

*Minnətdarlıq .................................................................322*

*Müəllifdən .....................................................................325*

# I fəsil

## VERA REY

*Sietl, 1 may 1933-cü il*

Taxta döşəmənin aralarından soyuq gəlirdi, boz yun jaketimə bürünərək titrəyirdim. Jaketin cəmi bircə düyməsi qalmışdı. Düymənin biri beş sent idi və yenilərini alıb tikmək haqda düşünməyi axmaqlıq hesab edirdim. Həm də artıq yaz gəlmişdi. Bəlkə, yox? Üçüncü mərtəbənin pəncərəsindən çölə baxdım və küləyin necə qəzəblə əsərək fit çaldığına qulaq verdim. Qoca gilas ağacının budaqları kirayə qaldığım balaca mənzilin divarlarına elə qəzəblə çırpılırdı ki, yeni zərbənin pəncərənin şüşələrini qıracağından qorxurdum. Bu ay təzə şüşələr saldırmaq üçün heç yerdən pul tapa bilməzdim. Bu dəqiqələrdə gözlənilməyən mənzərə bir anlıq məni öz həyəcanlarımı unutmağa məcbur etdi. Havada yüngül çəhrayı ləçəklər fırlanırdı. Mən ah çəkdim və gülümsədim. Eynilə qar kimiydilər.

– Ana! – köhnə mavi adyalın altından Deniel ciyildədi. Adyalı bir kənara atdım və onun doğma girdə sifətini, yumşaq, ucları qıvrılmış sarışın saçlarını gördüm. Onun körpəlik saçları. Üç yaşlı oğlum koppuş çəhrayı yanaqlarıyla və baxdığında ürəyim dayanan şəffaf-mavi rəngli böyük gözləriylə nə körpəydi, nə də

böyük uşaq. Yuxuda Deniel doğulduğu həmin gündə olduğu kimi görünürdü. Bəzən səhər tezdən barmaqlarımın ucunda onun otağına oğruncasına girir və qulağı qopardılmış, mavi məxmər bantı əzik-üzük olmuş balaca xovlu ayısını qucaqlayıb necə yatmasına baxırdım.

– Əzizim, nə baş verib? – dizlərim üstə şam ağacının taxtalarından hazırlanmış balaca çarpayının yanında diz çökərək, ehtiyatlı baxışlarla pəncərədən küləyin necə tüğyan etdiyinə baxmağı unutmayaraq soruşdum. Hə, əgər onu belə bir gecədə tək qoymağa hazırlaşıramsa, mən necə anayam? Dərindən ah çəkdim. Lakin mənim başqa seçimimmi vardı? Kerolayn gecə növbəsində işləyirdi. Və mən də yenidən oğlumu gecə növbəsinə hotelə apara bilməzdim, xüsusilə də keçən bazar günü baş verənlərdən sonra – Estella onu doqquzuncu mərtəbədəki otağın balkonunda yatan yerdə görmüşdü. Qadın onu isti, yumşaq adyalın altından çıxarıb qovmuşdu, sanki o, mətbəxdə un bankasının içində tapılan siçan idi. Bu, uşağı möhkəm qorxutmuşdu, mənsə az qala işimi itirəcəkdim. Yox, burada, öz çarpayısında mənim əziz balam üçün daha yaxşı olacaq, yeri isti və təhlükəsiz olacaq. Qapını bağlayacaqdım. Evin divarları, həqiqətən də, nazik idi, qırmızı ağacdan düzəldilmiş, əla mis qıfılı olan qapı isə möhkəm idi.

Qapı inadla, ucadan, qətiyyətlə döyüləndə biz hər ikimiz diksindik. Deniel üz-gözünü bürüşdürdü.

– Ana, yenə odur? – ucadan soruşdu, sonra səsini pıçıltıya kimi endirdi. – Həmin pis dayı?

– Narahat olma, əzizim, – mən ayağa qalxaraq dedim. – Bu, yəqin ki, Kerolayn xaladır. Sən burada qal, mənsə gedib baxıram.

Aşağı düşdüm və bir anlıq foyedə ayaq saxladım, neyləyəcəyimi düşünərək, sözün əsl mənasında, donub-qaldım. Qapının döyülməsi ara vermirdi. Artıq var qüvvəylə döyürdülər. Mən bunun kim olduğunu bilirdim və bilirdim ki, o nə istəyir. Çantama göz yetirdim: onda bir dollardan bir az artıq, ola bilsin, iki dollar ancaq olardı. Kirayə pulunu hələ üç həftə əvvəldən